# Meksikada tələbələrə Azərbaycan və COP29 haqqında mühazirə oxunub

**Meksikanın tanınmış Milli Politexnik İnstitutunun tələbələrinə Azərbaycan və COP29 haqqında mühazirə oxunub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Meksikadakı səfirliyi məlumat yayıb. Səfirlikdə keçirilən görüşdə bu ölkədəki səfirimiz Məmməd Talıbov müasir Azərbaycanın keçdiyi tarixi inkişaf yolu, dövlət müstəqilliyinin bərpa edilməsindən bəhs edib. Diplomat həmçinin müstəqilliyimizin ilk illərində qarşıya çıxan çətinliklər, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, onun Azərbaycan dövlətinin quruculuğu istiqamətində müstəsna rolu, eləcə də Ulu Öndərin uzaqgörənliyi və ideyaları əsasında regionda həyata keçirilmiş dünyamiqyaslı enerji və nəqliyyat layihələri nəticəsində həm region, həm də bütün Avrasiya miqyasında geosiyasi proseslərdə baş verən müsbət dəyişikliklər barədə tələbələrə məlumat verib.

Səfir həmçinin çıxışında erməni təcavüzünün tarixi, 44 günlük müharibə və nəticələri, regiondakı yeni reallıqlar, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, davam edən sülh prosesi, ölkəmizin neft-qaz strategiyası, iqtisadi inkişaf göstəriciləri, mövcud mina təhlükəsi, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdışının həyata keçirilməsi istiqamətində atılan addımlar haqda məlumat verib.

Ölkəmizin evsahibliyi etdiyi mötəbər tədbirlər, BMT-dən sonra ən iri təşkilat olan Qoşulmama Hərəkatına, BMT Təhlükəsizlik Şurası və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda uğurlu sədrlik təcrübəsi barədə tələbələri məlumatlandıran diplomat bu gün "yaşıl enerji"yə keçidi prioritet olaraq müəyyən edən Azərbaycanın COP29-a evsahibliyi və görülən fəal hazırlıq işlərindən söz açıb.

Bundan əlavə Meksika ilə Azərbaycan arasındakı ikitərəfli əlaqələr, son dövrlərdə həyata keçirilən qarşılıqlı səfərlər, ölkələrimiz arasında mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlıq imkanlarının genişləndirilməsi, eləcə də xarici tələbələr üçün ölkəmizdə mövcud olan təhsil imkanları, təcrübə və təqaüd proqramları barədə məlumat verilib, həmçinin tələbələr tərəfindən ünvanlanan çoxsaylı suallar cavablandırılıb.

Azərbaycan.- 2024.- 15 oktyabr (№ 226).- S.19.